# BİR SÖZÜM VAR ATAMIN ÜNVANINA

## *Ruhum mənim, doğum günün mübarək!*

Hələ uşaq olanda böyüklərdən eşitmişdim ki, insan bu dünyadan köçsə belə, ruhlar ölmür, hər zaman yaşayır. Elə o vaxtdan atama "ruhum" dedim. Ona görə ruhum dedim ki, bu dünya durduqca atam da yaşasın. Onu qorumaq üçün ünvanladığım ruhum müraciəti hər zaman dilimdə həkk oldu. Telefon nömrəsini belə telefonumun yaddaşına Ruhum mənim adı ilə yazdım.

Atamın yeni yaşı ilə bağlı təbrik yazısı yazmaq qərarını verəndə bir az tərəddüdə qapıldım. Görən, atamın əsl insanlıq simasını sözlər vasitəsilə ifadə edə biləcəyəmmi? Bilmirəm...

Atam Nağıyev Adil Xanıbəy oğlu 03 fevral 1954-cü ildə Lənkəran rayonunun İstisu qəsəbəsində (keçmiş Kirov qəsəbəsi) sadə, halal, zəhmətkeş bir ailədə anadan olmuşdur.

Təbiətən çox ciddi, tələbkar olan bu insanın atalıq və insanlıq məharətinə yaşım ötdükcə daha çox heyran olduğumu hiss etdim. Çünki bu ciddilik və tələbkarlığın arxasında qəlbində övladlarına qarşı hər zaman böyük bir məhəbbət və istəyin gücünü də gördüm. Mən onu uşaqlıqdan belə dərk etdim, belə tanıdım, belə sevdim.

Yadıma uşaqlıq xatirələri düşdü. O vaxtlar, yəni biz uşaq olanda böyüklərin uşaqlara verdiyi belə bir sual var idi: "Ən çox atanı istəyirsən, yoxsa ananı?"

Yadımdadır, bu sual mənə də həm ata, həm ana qohumlarım tərəfindən tez-tez verilərdi:

-Atanı çox sevirsən, yoxsa ananı?

Mən də bəzi uşaqlar kimi şablon cavablar verərdim:

- Hər ikisini.

Sual verənlərin belə bir şakəri olardı. Sual yenidən fərqli şəkildə səslənərdi:

-Yox, birini deməlisən.

Yenə də şəstlə cavab verərdim:

-Hər ikisini.

Sual verən qohum sualı təkrar verməkdən yorulmazdı, yenə soruşardı:

-Elə şey ola bilməz, bir az da olsa, adam birini digərindən çox istəyir.

İsrarlı qohumun əl çəkmədiyini görüb sonda deyərdim:

-Atamı.

Sualı verən ata tərəfdən qohum idisə, "Afərin"deyib əlçəkərdi, əgər ana tərəfdən qohum idisə, qaş-qabağını tökərdi. Böyüdüm, boya-başa çatdım. İllər sonra özümdən sordum: "Nədən hər zaman sonda atamı çox istədiyimi deyirdim. Yəni belə çıxırdı ki, anamı atamdan az istəyirdim.

Axı onların hər ikisi düynanın ən gözəl valideynləridir. Hər ikisi bizi boyabaşa çatdırmaq üçün gecə-gündüz çalışmış, bizi əxlaqlı, namuslu böyütmək üçün özləri hər zaman bu gözəlliklərin daşıyıcısı olmuşlar. Bəs onda niyə mən sonda anamı deyil, atamı çox istədiyimi deyirdim.

İllər sonra bu sualın cavabını öyrənə bildim. Səbəb anam idi. O zərif, o gözəl, o ağıllı və dərakəli qadın!

Gözəl anam! Sən bircə dəfə olsun, atamdan giley etmədin. Bəlkə də, buna heç bir səbəb yox idi. Biz bircə dəfə olsun, sənin səsinin yüksəkdən gəldiyini eşitmədik. Hər gün bizdən atamız üçün dua etməyimizi, Allahdan onu qorumasını diləməyimizi istədin. Biz buna adət etdik. Hər yeməkdən sonra sənin nəsihətinlə biz Allahdan atamızı qorumasını istədik.

Bu nəsihət beynimizin, qəlbimizin dərinliklərində elə kök saldı ki, bu gün də o yeri kimsə əvəz edə bilmədi.



Atamın peşəsi sürücü idi. Bakı-Lənkəran arası işləyirdi. Avtobus sürür, sərnişin daşıyırdı. İşi ilə əlaqədar yollarda çox olurdu.

O zaman qayğılı gözlərin uzun yollara dikilərdi, anam! Dilindən duaların əskik deyildi. Biz də səninlə birgə yatmazdıq, dincəlməzdik. Əllərimizi Allah dərgahına qaldırıb atamızın sağ-salamat gəlməsi üçün dua edərdik. Bunu hər gün, hər həftədə, hər ay etməkdən usanmazdıq, yorulmazdıq. Bu bizim ən sevimli vərdişimiz idi.

İki kiçik otaq, beş uşaq və bu dar otaqlarda arxayınca gəzib dolaşan sevgi, məhəbbət, hörmət, ehtiram, qayğı, doğmalıq və mehribanlıq.

Bu kiçik otaqlara beş övladla yanaşı umman qədər böyük, dağlar qədər vüqarlı, göylər qədər təmiz sevginizi də, məhəbbətinizi də sığdıra bildiniz.

Çətin günlərinizi hiss etdirmədiniz, nə vaxt, nədən narahat olduğunuzu heç vaxt demədiniz.

Biz də elə zamanlar oldu ki, çətin günlər yaşadıq. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə baş qaldıran hərc-mərclik, qıtlıq, böhranlı vəziyyət bizim də dar, kiçik otaqlarımıza soxulub əmin-amanlığımızı pozmaq, sevincimizi əlimizdən almaq istədi.

Sən buna imkan vermədin, ata!Heç vaxt gözlərimizə qəm-qüssə qondurmadın, qorxunun canımıza yol tapmasına imkan vermədin. Çəkdiyin əziyyətləri hiss etdirmədən, yuxusuz gecələr hesabına qazandığın neməti sevə-sevə yedizdirdin bizlərə. Həmin illər ərzində tək bizə deyil, imkansızlara da əl tutdun, ehtiyacı olanlara da yardım etdin. Halbuki qazandığın və bölüşdüyün çörəyi cadar-cadar olmuş əllərin, qandan ləkə düşmüş yuxusuz gözlərin hesabına əldə etdin. Amma onu bölüşəndə yorğunluğunu unutdun.

Nələr öyrənmədim səndən, Ata! Alnıaçıq, başıuca gəzməyi öyrəndim.Mərhəmətli və səxavətli olmağı öyrəndim.-Hər kəsə hörmət etməyi, tərbiyəli rəftarı öyrəndim. Qürurlu olmağı, ədalətli davranmağı öyrəndim. Çörəyini ehtiyacı olanlarla bölüşməyi öyrəndim. Tərbiyə öyrəndim, əxlaq öyrəndim. Əxlaqı mənəvi dəyər kimi hər zaman üstümdə gəzdirməyi öyrəndim. Gözütox olmağı, təmənnasız yaşamağı, halal çörək qazanmağı öyrəndim. Daha nələr sayım? Saymaqla bitməz ki... Məndə olan müsbət cəhətlərin hamısını səndən öyrəndim, atam! Puldan, sərvətdən ötrü mənliyini itirənlərə baxanda sənin hansı yüksəklikdə dayandığını görmək heç çətin deyil, atam!

Sən bizi elə bir əxlaq və tərbiyə sahibi etdin ki, zaman və mühitin bizi dəyişdirməyə gücü çatmadı. Minnətdaram, atam. Hər şeyə görə minnətdaram sənə.

Doğrudur, ali təhsilli deyilsən. Amma kəlmələrin, söhbətlərin, nəsihətlərin və tövsiyələrin milyonlardan dəyərlidir. Danışıq və fikirlərindən heç doymadım, atam! Hər dəfə səninlə söhbət edəndə bir gözəlliyə sahib olduğumu kəşf etdim.

Hər danışığımızda ən çox tövsiyə etdiyin kəlmələrdən biri: "Qızım, çalış həyatda amalın, məsləkin, vicdanın düz olsun. Onda bütün yollar üzünə açıq olacaq. Yadından çıxarma ki, bu xüsusiyyətinə görə nə qədər əzsələr də, düzlüyünü sındıra bilməyəcəklər. Çünki ataların belə bir məsəli var: "Haqq nazilər, ancaq üzülməz". Dediklərini qulağımda sırğa etdim, ruhum mənim.

Qonaqpərvərliyin bütün qohum-əqrəbanın dilinin dastanıdır. Yadımdadır, tələbə yoldaşlarım bircə dəfə səni görməklə elə çox sevmişdilər ki, ondan sonra mənə görə yox, sənin söhbətlərini, kəlmələrini dinləmək üçün tez-tez bizə gələrdilər. "Sənin çox gözəl atan var", "Atan çox nurlu insandır", "Atan nə yaxşı adamdır"- cümlələrini eşidəndə elə qürurlanırdım ki... O xatirələr bu gün də yada düşəndə söhbətimizin bəzəyi olursan, atam.

Səhvimiz olsa belə, adam yanında tənbeh etməzdin. Yadımdadır, bir dəfə anam məndən sənə şikayət edəndə sən anama: "Mənim qızım belə etməz" - demişdin. İlahi, onda etdiyim hərəkətdən ötrü nə qədər utanmışdım. Bir də belə səhv etməyəcəyimə, atamın etibarını itirməyəcəyimə özümə söz vermişdim.

Yanımda ola-ola hər zaman səni müdriklik zirvəsində gördüm, mənim üçün həmişə əlçatmaz oldun!

Kaş sənin qədər düşünə biləydim, kaş sənin qədər böyük qəlbə sahib ola biləydim. Kaş sənin qədər övladlarımı tərbiyə edə biləydim.

Gözlərinə qurban olum, Atam! O gözlər ki, övladları üçün şirin yuxulara illərlə həsrət qalıb. O gözlər ki, yükün ağırlığıdan yorulsa da, övladları ilə üzüzə gələndə hər zaman təbbəssümlə dolub. O gözlər ki, kənarda gördüyü ən yaxşı əməlləri, işləri bəbəklərinin dərinliyində hər cür narahat kölgədən qoruyaraq balalarına ötürüb. O gözlər ki, onlarda heç vaxt dosta, yaxına, tanışa, qohuma nifrət və kin məskunlaşmıyıb.

Əllərinə qurban olum, ay Atam! O əllər ki hər zaman haramdan uzaq olub. O əllər ki zəhmətlə, min bir əziyyətlə daim halal nemət qazanıb. O əllər ki, namərdə şillə, mərdə məlhəm olub.

Ağaran saçlarına qurban olum, ay Atam! O saçlar ki qaralığını biz övladların yolunda qurban verib. O saçlar ki uca dağ başında qara bənzəyir. O saçlar ki hər birinin ağarmasında bir qayğının, bir sıxıntının, bir kədərin, bir üzüntünün izi var.

Alnında uzun illərin açdığı qırışlara qurban olum, ay Atam! O qırışlar ki, hər biri xəbərsiz olduğumuz sıxıntının, əziyyətin yadigarıdır. O qırışların hər biri zamanın səssiz-səssiz buraxdığı qayğılı günlərin, fikirli sabahların, bitib-tükənməyən uzun gecələrin amansız yumruqlarıdır. Bu zəhmətin, bu əziyyətin, bu böyüklüyün qarşısında layiqli övlad olmağı bacardımı, atam? Ürəyincə övlad ola bildimi, atam?

Qayğılı günlərini xatırladıqca sözlərimin necə gücsüz, qələmimin necə zəif olduğunu anlayıram.

Övladlarını əsl insan kimi yetişdirmək üçün əyilməz, yenilməz, qürurlu, qüdrətli, səngərli bir qala kimi dik dayandın. İnsani keyfiyyətlərini biz övladlarına ötürmək üçün insanlıq mücəssəməsi, insanlıq nümunəsi oldun, atam!

Övladlarını vətənpərvər yetişdirmək üçün torpağın, yurdun, vətənin müqəddəsliyini doğulduğumuz gündən nəfəsinlə, ruhunla, sözlərinlə, gözlərinin dərinliyində məskunlaşmış sevginlə hopdurdun beynimizə, ruhumuza, qəlbimizə.

Övladlarını ziyalı kimi yetişdirmək üçün, təhsil vermək üçün yorulmadan gecə-gündüz işlədin, hər əziyyətə qatlaşdın, 4 övladına ali təhsil verdin. Ali məktəbdə oxuduğumuz illərdə hər uğurumuza uşaq kimi sevindin, hər aldığımız yüksək qiymətdən ürəyin dağa döndü. Məhz bu sevincinə görə də hər zaman irəli getməyi, daha yüksəklərə can atmağı qarşıma məqsəd qoydum. Səni sevindirmək üçün, sənin gözlərindəki sevinc parıltısını görmək üçün təhsilimi davam etdirdim.

Sənə layiq övlad ola bildimi, atam? Bilmirəm. Kaş bunu öyrənə bilsəm. Mən də görmək istədiklərini hiss edəbilsəm... İnan ki, nə olursa-olsun, o istəklərini gerçəkləşdirmək üçün hər əziyyətə qatlaşaram, atam!

Üz-üzə gəldikdə sənə deyə bilmədiklərimin lap az hissəsini bu vərəqlərə köçürdüm. Böyük bir hissəsi isə qəlbimin ən dərin guşəsində sözlərə çevrilə biləcəyi günü gözləyir. Allahdan özümə güc və layiqli qələm arzulayıram ki, sənin haqqında yazacağım kitabda olduğun kimi təsvir edə bilim.

Müdriklik zirvəsinin timsalı atam! Mənim atam olduğun üçün çox şanslıyam. Səni qocaltdığım üçün bağışla, atam! Ömrünün üzərinə gələn yeni yaşın mübarək olsun, Atam! 67 yaşın xeyirli olsun, Atam! Allahdan sənə uzun ömür cansağlığı və xeyirli günlər arzulayıram.

Başımın tacı, Atam! Ömrümün bəzəyi, Atam! Həyatımın günəşi, ayı! Gözlərimin işığı, Atam! Dayağım, pənahım, qüvvətim, Atam! Düzlüyüm, bütövlüyüm, iradəm, gücüm, sağlam düşüncəm, sevgim, sevincim, Atam!

100 yaşa, Ruhum mənim! Sənin varlığın, anamın varlığı mənim işimdə, ailəmdə, qardaşımın, bacılarımın işində, ailəsində uğurlarımızın bolluğudur.

Allah sizi qorusun, əziz valideynlərim! Özünüzə yaxşı baxın ki, mənim də yazıb-yaratmağa, yaşamağa ilham mənbəyim olsun!



***Təranə Adil qızı NAĞIYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət***
***Pedaqoji Universiteti***